***Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə “Hərbi feldşer işi” ixtisası üzrə qəbul üçün tələb olunan sənədlər və qəbul qaydaları***

AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ

# *Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə “Hərbi feldşer işi” ixtisası üzrə qəbul üçün tələb olunan sənədlər*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** **Təhsilalma forması: əyani**

Cari ildə ümumi təhsil pilləsinin tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit və gizir (miçman) rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

Hərbi Tibb Fakültəsinə sənəd qəbulu prosesi 3 mart 2025-ci il tarixdən 30 may 2025-ci il tarixədək həyata keçiriləcəkdir. Namizədlər aşağıda qeyd olunan sənədləri hazırlamalı və sıra ardıcıllığı ilə kağız qovluğa yerləşdirməlidir:

1. **Ərizə**
2. **Anket forması**
3. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
4. **Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
5. **Doğum haqqında şəhadətnamənin surəti**
6. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqə məlumatları üzrə elektron arayış**
7. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli olduqda)**
8. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
9. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə**
10. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri**
11. **Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərində (kabinetlərdə) qeydiyyatda olub-olmaması haqqında arayış**

*HƏRBİ TİBB FAKÜLTƏSİNƏ “HƏRBİ FELDŞER İŞİ” İXTİSASI ÜZRƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR*

1.Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən fakültədə təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi Tibb Fakültəsinə qəbula mane olan digər halları müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına daxil edilmirlər.

2.Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı müsabiqədə iştirak etmələri üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinə göndərilir.

3.Namizədlərin Hərbi Tibb Fakültəsinə qəbulu müvafiq tədris ilində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı verən abituriyentlərin buraxılış imtahanından, digər abituriyentlərin isə müvafiq tədris ilində keçirilən qəbul imtahanından əldə etdikləri nəticələr əsasında həyata keçirilir.

4.Qəbul imtahanının tarixi Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasında müayinədən keçmək üçün tarix və ünvan namizədlərə əlavə olaraq bildiriləcək.***